*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 mart 2020-ci il № 20 (2438) Qiyməti 30 qəpik


## Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib

*Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib. İclasda ilk olaraq altıncı çağırış Milli Məclisinə seçilmiş deputatların siyahısı oxunub. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib. Sonra altıncı çağırış Milli Məclisin birinci iclasında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söyləyib.*




Ölkə başçısı altıncı çağırış Milli Məclisin öz işinə başlaması münasibətilə bütün deputatları ürəkdən təbrik edib və onlara uğurlar arzulayıb. "İlk növbədə, beşinci çağırış Milli Məclisin deputatlarına göstərdikləri fəaliyyətə görə təşəkkürümü bildirirəm. Beşinci çağırış Milli Məclis, onun deputatları, rəhbərliyi ölkəmizin uğurlu inkişafı istiqamətində böyük rol oynamışlar, parlament tərəfindən qəbul edilmiş qanunlar bizim uğurlu inkişafımızın hüquqi bazasını gücləndirmişdir. Əminəm ki, altıncı çağırış Milli Məclis də uğurla fəaliyyət göstərəcək və beləliklə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəkdir".

Fevralın 9-da keçirilən parlament seçkilərinin ölkəmizin həyatında önəmli hadisə olduğunu qeyd edən dövlət başçısı çıxışında xalqın iradəsini əks etdirən seçkilərin beynəlxalq təşkilatlar tərəfindən izlənildiyini və yüksək qiymətləndirildiyini vurğulayıb. Prezident İlham Əliyev onu da bildirib ki, seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və bu demokratiyanın inkişafında önəmli addımdır. Azərbaycanda yeni siyasi konfiqurasiyasının formalaşması məsələsinə toxunan ölkə başçısı bildirib ki, həm seçkilər, həm də seçkilərdən sonra keçən dövr, iqtidar tərəfindən siyasi partiyalara yönəlmiş addımlar - bütün bunlar bizim mövcud siyasətimizin yeni mərhələsini əks etdirir. Prezident onu da vurğulayıb ki, ölkədə konseptual və struktur xarakteri daşıyan kadr islahatları aparılıb ki, bu da Milli Məclisdən yan keçə bilməzdi. Prezident çıxışında informasiya mühafizəsi, sosial siyasət, beynəlxalq siyasət, o cümlədən deputatların beynəlxalq təşkilatlarla əlaqələri, iqtisadi sahədə görülən işlər, dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafı və digər bu kimi məsələlərə toxunub. Dövlət başçısı ölkədə aparılan gənclər siyasətindən də söz açıb. "Azərbaycan əhalisinin mütləq əksəriyyəti gənclərdir və Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir. Ona görə gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların fəal işə cəlb edilməsi, - misal üçün, könüllülər hərəkatı çərçivəsində, - vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində əlbəttə ki, qanunvericilikdə addımlar atılmalıdır". Prezident İlham Əliyev onu da qeyd edib ki, bugünkü gənc nəsil vətənpərvərdi. "O ki qaldı, gənc nəslə, yenə də deyirəm, bizim gənc nəslimiz vətənpərvərdir, Vətənə bağlıdır, milli köklərə bağlıdır, elə də olmalıdır. Bizim gənclər, mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, milli ruhda tərbiyə almalıdırlar. Eyni zamanda, gənclərin mənəvi və fiziki hazırlığı üçün əlavə tədbirlər həyata keçirilməlidir. Hesab edirəm ki, Milli Məclis və onun müvafiq komitələri bu işlə məşğul olub konkret təkliflər irəli sürəcəklər".

Dövlət başçısı çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də bəhs edib. "Beynəlxalq fəaliyyətlə bağlı demək istərdim ki, bizim deputatlar bir neçə beynəlxalq təşkilatda təmsil olunurlar. Əlbəttə ki, orada əvvəlki illərdə də fəallıq kifayət qədər yüksək idi. İndiki dövrdə daha da yüksək olmalıdır. Çünki biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində, onların xislətidir. Onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar. Bu da heç kimə sirr deyil. Belə olan halda onların tarixi saxtakarlığına elə bil ki, bəraət qazandırılır. Ona görə bizim deputatlar bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətləri ortaya qoymalıdırlar. Mən Münxendə Kürəkçay sülh müqaviləsi haqqında deyəndən sonra bilirəm ki, Ermənistanda indi bu müqaviləni əzbərləyirlər. Orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada ümumiyyətlə, söhbət belə getmir. Bir tərəfdən Rusiya generalı Sisianov, bir tərəfdən İbrahim xan, özü də rusca yazılmışdır İbrahim xan "Karabaxski Şuşinski". Bax, budur real tarix. XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir. Mən bunu edirəm. Bir çox müsəlman ölkələrinin liderlərinə bu şəkilləri göstərirəm. Əgər bunu geniş siyasi elita görsə, onda əlbəttə ki, o ölkələrin rəhbərləri üçün Ermənistan rəhbərləri ilə ağız-ağıza öpüşmək ayıb olar. Biz bunu deməliyik, deməliyik ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb. Amma biz bu məlumatı kifayət qədər çatdıra bilmirik. Ona görə bu, xüsusi bir istiqamət olmalıdır.

Əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan bütün təşkilatlarda biz fəal olmalıyıq, hücum diplomatiyası aparmalıyıq, çünki haqq-ədalət bizim tərəfimizdədir.

Xocalı soyqırımı haqqında. Artıq 10-dan çox ölkənin parlamenti bunu rəsmən tanıyıb. Bu proses davam etdirilməlidir və deputatlar bu prosesdə fəal olmalıdırlar. Çünki bu qərarların qəbul edilməsində dövlət qurumları böyük dərəcədə əsas rol oynayırlar. Ona görə parlament fəal olmalıdır. Bu, artıq beynəlxalq münasibətlər çərçivəsində qəbul edilmiş faktdır. Ermənistan tərəfinin çox yersiz, yalançı, cılız cəhdləri Münxen Təhlükəsizlik Konfransında özünü göstərdi və bir daha onları ifşa etdi. Çünki onların bütün tarixi saxtakarlıqdır. Onlar tarixi Azərbaycan torpağında dövlət qurublar, əfsuslar olsun ki, bizim Azərbaycan Xalq Cümhuriyyətinin köməyi ilə. İndi bütün tarixi adlarımızı dəyişdirib bizim tariximizi, abidələrimizi özününküləşdirmək istəyirlər. Ona görə deputatlar daim bu məsələni qaldırmalıdırlar".

Prezident sonda bundan sonra da bizim müstəqillik və inkişaf yolu ilə gedəcəyimizə, Azərbaycan parlamentinin bu işdə fəal olacağına əminliyini bildirib və altıncı çağırış Milli Məclisin deputatlarına işlərində uğurlar arzulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan ilə Misir arasında hərbi əməkdaşlıq məsələləri müzakirə edilib



*Martın 11-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim ilə görüşüb.*

Azərbaycan ilə Misir arasında mövcud dostluq münasibətlərinin dövlətlərimizin maraqlarına uyğun daim inkişaf etdiyini qeyd edən nazir hərbi sahədə əməkdaşlığın vacibliyini vurğulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, regiondakı hərbi-siyasi vəziyyətdən danışan general-polkovnik Zakir Həsənov diqqətə çatdırıb ki, Ermənistanın işğalçılıq siyasəti bu gün də davam edir və danışıqların uzadılması bölgədəki sabitliyə mənfi təsir göstərir.

Səfir də öz növbəsində Misirin Azərbaycan ilə əlaqələrinin daha da genişləndirilməsinə önəm verdiyini vurğulayıb.

Görüşdə tərəflər hərbi-texniki, hərbi təhsil, hərbi tibb sahələrində əməkdaşlıq məsələlərini müzakirə ediblər.

# Azərbaycan ilə Almaniya arasında hərbi əməkdaşlıq sahəsində yeni layihələrin həyata keçirilməsi davam etdiriləcək

*Martın 12-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq ilə görüşüb.*



Müdafiə naziri səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona Azərbaycan ilə Almaniya arasında əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq sülh danışıqlarının rəsmi Yerevan tərəfindən qəsdən yubadıldığını vurğulayıb. Nazir Almaniyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığı və hörmətlə yanaşdığı üçün səfirə minnətdarlığını bildirib.

Müdafiə naziri Azərbaycan ilə Almaniya arasında müxtəlif sahələrdə əlaqələrin möhkəm əsaslar üzərində qurulduğunu qeyd edərək ikitərəfli və NATO proqramları çərçivəsində, xüsusilə hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivlərindən danışıb.

V.Maniq öz növbəsində ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib və ölkəsinin Azərbaycan ilə münasibətlərin genişləndirilməsi, o cümlədən hərbi sahədə mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə tərəflər Azərbaycan Ordusunun zabitlərinin təcrübə mübadiləsi məqsədilə Almaniya Silahlı Qüvvələrinin qərargahlarında xidmət keçməleri, ordumuzun nümayəndələrinin Almaniya hərbi qulluqçularının cəlb edildiyi hərbi təlimlərdə müşahidəçi qismində iştirakı, hərbi mütəxəssislərin qarşılıqlı səfərlərinin təşkili, regional enerji layihələrinin təhlükəsizliyinin birgə təmin edilməsi və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Bildirilib ki, Azərbaycan ilə Almaniya arasında hərbi əməkdaşlıq sahəsində yeni layihələrin həyata keçirilməsi cari ildə də davam etdiriləcək.

*Nümunəvi xidmət*

# "Müqəddəs borcumuzu yerinə yetiririk"



*Bu gün müstəqil Azərbaycan Respublikasının güclü ordusu, sağlam cəmiyyəti və bütün dünyada böyük nüfuzu var. Müstəqilliyimizin qazanılması, nüfuzun əldə edilməsi heç də asan başa gəlməyib. Bu uğurların əldə edilməsində Azərbaycan Ordusunun, onun şəxsi heyətinin misilsiz xidmətləri danılmazdır. Bu xidmətlər isə daim yüksək qiymətləndirilib, diqqət və qayğıdan uzaq qalmayıb. Ölkəmizin 20 faiz ərazisinin işğal altında olduğu bir vaxtda Vətən, millət, torpaq uğrunda savaş meydanına atılanların diqqət mərkəzində saxlanılması Müdafiə Nazirliyi rəhbərliyinin qarşısında duran prioritet məsələlərdən biridir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və digər rəhbər şəxslərin hər dəfə ön xətdə yerləşən hərbi hissələrimizə səfəri, şəxsi heyətin məişət şəraiti ilə tanışlığı və hərbi qulluqçularımızı qiymətli hədiyyələrlə mükafatlandırması dediklərimizin bariz sübutudu. Səfərlərin əsas məqsədi əsgərlər arasında hərbi vətənpərvərliklə bağlı təbliğat işlərini aparmaq, onlarda ordumuza olan inamın artırılmasına böyük dəstək olmaqdır.*

**Əsgər Əli Əhmədov:**

- Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ön xətdə yerləşən hərbi hissələrə gəlişi hər birimizin əhval-ruhiyyəsini yüksəltdi. Müdafiə Nazirliyinin rəhbər heyətinin bizimlə görüşməsi mənim və əsgər yoldaşlarımın xidmət müddətində ən unudulmaz hadisələrdən biri olaraq hafizələrimizə həkk olundu. Şübhəsiz ki, ordu sıralarında xidmət edən hər bir kəs Müdafiə naziri tərəfindən mükafata layiq görülmək istəyir. Bu gün çox sevincliyəm ki, Müdafiə nazirinin mükafatlandırdığı hərbçilərin sırasında mən də var idim. Bu, ön xətdə xidmət edən hərbi qulluqçu kimi məsuliyyətimi daha da artırdı. Keçirdiyim hissi sözlə ifadə etmək çətindir. Bu hədiyyə bizə olan inamın, sevginin, göstərilən



diqqətin simvoludur. Xidmətimin sonuna qədər də çalışacağam ki, bizə göstərilən etimadı layiqincə doğruldum. Rəhbər heyətin şəxsi heyəti tez-tez ziyarət etməsi, yaradılan şəraitlə tanış olması, qayğı və problemlərimizlə maraqlanması bizlərin timsalında bütün ordumuza göstərilən yüksək diqqətin nəticəsidir. Bu da hər birimizin döyüş ruhu və mənəvi-psixoloji hazırlığına müsbət təsir göstərir, bizi nümunəvi xidmətə ruhlandırır. Bu gün düşmənlə üzbəüz mövqedə Vətənə olan övladlıq borcumuzu ödəyirik. Nə hava şəraiti, nə çətin relyef bizim müqəddəs amalımızı yerinə yetirməyə - torpaqlarımızı müdafiə etməyə mane ola bilməz. Komandirlərimiz tərəfindən keçirilən təlimatlara əsasən, hər birimiz ayıq-sayıq xidmət aparır, bu müqəddəs vəzifənin məsuliyyətini dərk edirik. Düşmən tərəfimizdən daim izlənilir. Düşmənin atəşkəsi pozmaq və digər təxribat xarakterli hərəkətlərinin qarşısı vaxtında alınır. Yeri gəlmişkən, qarşıdan gələn Novruz bayramı münasibətilə yaxınlarımı, doğmalarımı, xalqımızı təbrik edir, hər bir kəsin süfrəsinə bol ruzi-bərəkət arzu edirəm.

**Əsgər Rasif Məhərrəmov:**

- Müdafiə nazirimiz tərəfindən hədiyyəyə layiq görülənlərdən biri də mən oldum. Sevincimin həddi-hüdudu yoxdu. Çünki qiymətli hədiyyə xidmətdə fərqlənən və döyüş hazırlığında yüksək nəticələr göstərən hərbçilərə verilir. Bu gün ordumuza göstərilən etimadın bir daha şahidi olduq. Nazirimiz tərəfindən hədiyyə ilə təltif olunmağım xidmətim müddətində ən yaddaqalan hadisədir. Mötəbər hadisə mən və əsgər yoldaşlarım üçün əvəzolunmaz stimuldur. Biz də öz növbəmizdə bizə göstərdiyi etimadı doğrultmağa borcluyuq. Ordumuzun gücü göz qabağındadır. Yerləşdiyi coğrafi mövqedən asılı olmayaraq, bizlər üçün yaradılmış şərait xidmətimizi düzgün təşkil etməyimiz üçündür. Gündəlik fəaliyyətimiz üçün bölməmizdə lazımi şərait yaradılıb. Bundan başqa arsenalımıza daxil olan silahlar, müasir standartlara cavab verən sosial-məişət şəraiti orduya olan inamın təcəssümüdür. Bölməmizdə olan müasir müşahidə vasitələri ilə düşməni daim izləyir, hərəkətlərində məkrli niyyət, təxribat hiss edildiyi anda lazımi tədbirlər görülür. Xalqımız əmin olsun ki, müqəddəs borcumuzu yerinə yetiririk, bizə heç bir qüvvə mane ola bilməz. Müasir ordumuz Ali Baş Komandanın döyüş əmri ilə bu gün işğal altında olan torpaqlarımızı azad etmək, tarixi ədaləti bərpa etmək gücündədir.

**Baş leytenant Fuad CƏFƏROV, "Azərbaycan Ordusu", fotolar C.CƏFƏROVUNDUR**

*Ön xətdən reportaj*

# Xalqın güvəncisən, Azərbaycan əsgəri!

*Mövqedəyik... Əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığından söz açan baş leytenant Bəhruz Qocayev deyir ki, əsgərlərimizin hər biri hər an düşmənin üzərinə atılmağa hazırdır. Müşahidə sektorundan qarşı tərəfə baxdıqca insanın ürəyi sıxılır. Zabit fikirlərimizi oxuyurmuş kimi: "Həmin yerlərə geri dönəcəyimiz günə az qalıb!" - deyir. Bu sözləri tabeliyində xidmət edən şəxsi heyətə sonsuz güvənc kimi dinləyirəm.*



Öyrənirəm ki, Bəhruzun atası Ədalət kişi də hərbçi olub. O Qarabağ müharibəsinin iştirakçısıdır. "İlk dəfə atamı hərbi formada görəndə içimdən qəribə bir hiss keçdi. Həmin gün atamla qürurlandım. Mən də zabit olmağı qərara aldım. İllər keçdikcə Vətənimizə sevgiylə, onu qorumaq hissiylə böyüdüm. Bu sevgi məni Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu etdi. Leytenant hərbi rütbəsini aldığım gün yaddaşımdan silinməyəcək. Mən də bu şərəfli peşənin daşıyıcısıydım. Ön xətdə xidmətə başladım."

Döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyətlə keçirilən dərs və məşğələlərdən söz açan zabit bildirir ki, bu dərslərin əsgərlərin daha hazırlıqlı və çevik olmalarında müstəsna rolu vardır. Komandir heyəti məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edir, heyət üzvlərinə döyüş vərdişlərini daha dərindən öyrədir.

Çavuş Əvəz Yusifov döyüş növbəsini dəyişmə vaxtı olduğunu deyir. Təzə növbə bir sıra düzülür. Əsgərlər çavuş Əvəz Yusifovun komandası ilə silahını yoxlayır. Döyüş növbəsini dəyişmək üçün əsgərlər müşahidə sektorlarına doğru irəliləyirlər. Zabit Bəhruz Qocayev deyir:

- Döyüş növbəsini dəyişməzdən əvvəl silahla davranış və təhlükəsizlik qaydaları şəxsi heyətin nəzərinə çatdırılır. Hər növbədə düşmənin yerləşdiyi ərazi, qarşı tərəfin snayper fəaliyyəti haqqında əsgərlərimizi məlumatlandırırıq. Növbədə olan şəxsi heyət düşmənin hər bir fəaliyyətini nəzarət altında saxlayır, hər hansı bir tərpəniş baş verərsə, aidiyyəti üzrə məlumat veririk.

- Çavuş Yusifov, - deyə hərbi qulluqçumuz özünü təqdim edir. Artıq beş ildir taleyini ordu ilə bağlayan Əvəz xalqımızın zəngin hərbi ənənələri olduğunu deyir. "Xalqımız qonaqpərvər, sülhsevər olduğu kimi, döyüşlərdə də qəhrəman oğulları ilə salnamələr yazıb. Bu ənənələrin davamçıları olaraq bizim üzərimizə böyük məsuliyyət düşür. Aprel döyüşləri düşmənə gücümüzün bir qismini göstərmək imkanı yaratdı. Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin üstün olduğunu düşmən də etiraf edir. Döyüşlərdə düşməndən azad edilən ərazilərdə aparılan yenidənqurma işləri təsdiqləyir ki, Azərbaycan Ordusu işğalı tezliklə sonlandıracaq və diqqətini ancaq ordu quruculuğu işlərinə yönəldəcək.

Döyüş mövqeyində xidmət edən əsgərlərlə də həmsöhbət oluruq. Hər birinin üzündə məğrurluq var. Bir ildir ordu sıralarında xidmət edən əsgər Bəxtiyar Ocaqquliyev hərbi xidmətdə əldə etdiyi uğurlardan danışır. "Öncə peşəkar komandirlərimizdən döyüş sirlərini, silah və texnikalarla davranış qaydalarını öyrənmişəm. Bundan başqa əsgəri xidmət bizə dözümlülük, Vətənə bağlılıq, düşmənə nifrət hissləri, nizam-intizamlı olmağı aşılayıb. Hərbi xidmətdə həm əsgər, həm də cəmiyyətə yararlı vətəndaş kimi formalaşırıq. Döyüş mövqeyimiz düşmənlə yaxın məsafədədir. Səngər həyatı çətin olsa da, bu çətinliyin öhdəsindən layiqincə gəlirik. Mövqeyimiz hər cür sosial-məişət şəraiti ilə təmin olunub. Bizi müqəddəs bir amal birləşdirir - Vətənimizi qorumaq. Hər birimiz bilirik ki, səngər müvəqqətidir. Döyüş əmri veriləndə Azərbaycan əsgəri xalqımızın etimadını doğruldaraq, tariximizə yeni qəhrəmanlıq səhifələri yazacaq."

- Səngərdə xidmət etdiyim üçün sevincliyəm, - deyə əsgər Bəhrəm Hüseynov söhbətə başlayır. Əsgərin şux duruşu, iti baxışları, cəld və çevik hərəkətləri bizə könül xoşluğu verir. - Burada əsgər yoldaşlarımla, komandirlərimlə birlikdə düşmənin təxribatlarının qarşısını almağa qadirik. Səngərdə keçirdiyim günləri heç zaman unutmayacağam. Burada bir çox bayramları, silahdaşlarımızın ad günlərini və digər xoş günləri qeyd etmişik. Bu anların hər birini daim qürurla xatırlayacağıq. İstəyirik ki, qələbə sevincini əsgər kimi yaşayaq.

Əsgərlər Şəkixan Şəkinskiy, Yadigar Muradov, Qardaşxan Qasımov, Rahil Alızadə, Vüsal Quliyev, Samrat Əlizadə, Sabir Həsənov və digərləri hərbi xidmətin əsl mərdlik məktəbi olduğunu deyirlər. Əsgərlərin hər biri səngərdə yaranan dostluğun əbədi olduğunu deyir. "Həyatda ən sadiq və möhkəm dostluq hərbi xidmətdə qazanılır. Burada hər birimiz dostuq, qardaşıq. Bilirik ki, əsgər yoldaşımızla, silahdaşımızla çiyin-çiyinə döyüşəcəyik. Əsgərlik dostluğu ən sadiq və möhkəm dostluqdur. Hərbi xidmətdən sonra da bir-birimizlə əlaqə saxlayacaq, şad günlərimizi bölüşəcəyik".

Vətənin müdafiəsində dayanan igidlərimizin sözlərindən fərəhlənirik. Dönüb arxaya baxıram. Döyüş mövqeyinin timsalında müdafiə qalası görürəm. Və mənə elə gəlir ki, bu anlarda "Xalqın güvəncisən, Azərbaycan əsgəri!" kəlmələrini eşidəcəm...

* * *

Ordu xalqın və dövlətin təhlükəsizliyinin təminantçısı, müstəqilliyini möhkəmləndirən və əbədi edən yenilməz qüvvədir. Ordunun əsas məqsədi və amalı torpağı, dövləti qorumaq, xalqın təhlükəsizliyini təmin etməkdir. Üzü səngərlərə - torpaqlarımızı erməni işğalçılarından qoruyan zabit və əsgərlərin yanına bu fikir və düşüncələrin yaratdığı yüksək ovqatla gedirik.

Zabit Rüstəm Məmmədovdan eşitdiyimiz sözlər də ovqatımızı xeyli yüksəldir. "Əsgərlərimiz Vətən borcunu şərəf və ləyaqətlə yerinə yetirirlər. Vətənpərvərlik hissi yüksək olan şəxsi heyətimiz birinci Qarabağ döyüşlərində igidlik və qəhrəmanlıq göstərən zabit və əsgərlərin qəhrəmanlıqlarını davam etdirməyə hər an hazırdır. Onlar yaxşı bilirlər ki, bu yol qəhrəmanların, torpağını, Vətənini ürəkdən sevənlərin yoludur, - zabit deyir. Onun bu sözlərindən torpaq ətri, qələbə qoxusu gəlir.

Belə xoş duyğuların cazibəsində ön xəttə yollanmağa hazırlaşırıq. Səngərlərə doğru uzanan yollar bizi qoynuna alır. Əsgərlərlə görüşün təşnəsindəyik.

Səngərlərə yaxın olan kəndlərdən keçirik. Ordumuzun gücünə, qüdrətinə arxalanan sakinlər doğma ocaqlarında arxayın yaşayırlar. Bilirlər ki, ordumuzun zabit və əsgərləri torpaqlarımızı göz bəbəyi kimi qoruyurlar.

Zabitlər Şəmməd İsmayılov və Rüfət Qasımov bu hərbi hissədə xidmət edirlər. Onların ikisinin də kifayət qədər döyüş təcrübəsi var. Zabitlər bizi səngərlərə aparacaq yolların hər addımına, hər qarışına bələddirlər.

Səngərlərə yaxınlaşdıqca torpağın ətri daha aydın hiss olunur. Əsgərlərimizin qollarını güc və qüvvə ilə dolduran da torpaq qoxusu, onun xoş ətri, rahiyyəsidir. Bu qoxu gündən-günə zabit və əsgərlərimizin gücü ilə bərabər ovqatını artırır, onları uğurlara istiqamətləndirir, qələbələrə ruhlandırır.

Yorucu olmayan yollar sanki bizi qolları üstünə götürüb irəli aparır. Qəhrəmanların, cəsurların məskəni olan ön xəttə yaxınlaşırıq. Bizə bələdçilik edən zabitlərin məsləhəti ilə kəsişən yolların girişində avtomobildən düşüb dərin qazılmış səngərlərdə ön mövqedə xidmət edən, əldə silah yurdumuza keşik çəkən oğullarımızın yanına gedirik.

Əsgərlərin xidmət etməsi üçün burada - ön xətdə hərtərəfli şərait yaradılıb. Bütün ehtiyat tədbirləri görülüb. Mövqeyə çatan kimi ilk olaraq leytenant İbrahim Süleymanlı ilə görüşüb söhbət edirik. Gənc zabitin üzündə bir qürur, gözlərində iftixar, sözlərində bir yenilməzlik duyulur. Xidmətinin və ömrünün ən şərəfli günlərini yaşayan leytenant İbrahim Süleymanlının səsində də bir ötkəmlik, bir məğlubedilməzlik hiss olunur. Bu səs əsl komandir səsidir:

- Əsgərlərimizin xidmət aparmaları üçün komandanlıq hərtərəfli şərait yaradıb. Biz də bu şəraitdən lazımınca bəhrələnirik. Növbədən qayıdan əsgərlərimiz burada istirahət edir, asudə vaxtlarını səmərəli keçirir, növbəyə gümrah qayıdırlar. Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirən əsgərlərimiz vətənpərvərdirlər. Onlar qoynunda doğulduqları Vətən torpaqlarını göz bəbəyi kimi qoruyurlar. Belə cəsur əsgərlərimizlə fəxr edirik.

Qısa söhbətdən sonra gənc zabitlə əsgərlərin yataq və istirahət otaqlarına baxırıq. Buradakı səliqə-sahman könlümüzü açır. Şəxsi heyətin istirahət etməsi üçün gözəl şərait yaradılıb. Növbədən qayıdan əsgərlər burada həm istirahət edir, həm də televiziya vasitəsi ilə ölkədə gedən uğurlu prosesləri, ordu quruculuğu istiqamətində aparılan islahatları tam rahatlıqla izləyə bilirlər.

Əsgərlər üçün ön xətdə yaradılmış şəraitlə tanış olduqdan sonra leytenant İbrahim Süleymanlı ilə birlikdə səngərlərə yollanırıq. Səngərboyu addımaddım irəli gedirik. Ayağımızın altında qalan torpağın ətri, qələbənin qoxusu burada lap aydın hiss olunur. Elə bil torpağın ətri bir an içində bizim də gücümüzü artırır.

Hiss olunur ki, şəxsi heyət döyüşə hazır vəziyyətdədir. Əsgərlərimizin barmaqları tətikdədi, baxışları daim qarşı tərəfdə müşahidə aparır. Deməli, tətik hər an çəkilər, silahlar dilə gələr və torpaqlarımızda təxribat törətmək istəyən düşmənin niyyətinin qarşısı alınar. Gördüklərimizdən ürəyimiz açılır, qəlbimiz, könlümüz xoşlanır.

İşğalçıların mövqelərini müşahidə edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Musa Elnur əsgəri xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə edib. Bu müddət ərzində silahların sirlərinə yiyələnib, döyüş təcrübəsini artırıb. Vətənə olan sevgisi onu yenidən hərbi xidmətə - səngərlərə gətirib.

- Vətənə xidmət etmək hər birimizin borcudur, - çavuş Musa Elnur deyir. - Biz bu borcu şərəflə yerinə yetiririk. Torpaqlarımızı erməni işğalçılarından göz bəbəyimiz kimi qoruyuruq. Əsgərlərin torpağa ürəkdən bağlı olan vətənpərvərlik hissləri yüksəkdir. Əminik ki, bu hisslər bizi qələbəyə qovuşduracaq. Məğlubiyyətə məhkum olan düşmən bu hissin, bu yüksəlişin qarşısında dayana bilməyəcək. Çünki biz gücümüzlə, qüdrətimizlə erməni qəsbkarlarından torpağa qadirik. Ən əsası odur ki, bu duyğu hamımızı qələbə ovqatına kökləyib. Belə bir deyim var: "Böyük qələbələr döyüş meydanlarından əvvəl ürəklərdə qazanılır." İnşallah, gün gələcək ki, biz də ürəklərimizdə qazandığımız qələbələrimizi döyüş meydanlarında göstərəcəyimiz qəhrəmanlığımızla, igidliyimizlə təsdiq edəcəyik.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Cavid Salmanov, əsgərlərdən Elşən Nəsirov, Anar Mehdiyev və başqaları ilə də görüşüb söhbət edirik. Onlar da bir amalla xidmət edirlər: torpaqlarımızı işğaldan azad etmək. Sözlərində və gözlərində vətənpərvərlik hisslərini yaşadan zabit və əsgərlərimizlə söhbət etdikcə ürəyimiz sevinclə, qəlbimiz qürurla dolur.

Getdikcə hər addımda torpağın ətrini, qələbənin qoxusunu hiss edirik. Olduqca ülvi bir hissdir, heç vaxt ondan uzaqlaşmaq istəmirsən. Heç vaxt uzaqlaşmayacağıq da - bu hiss sonda bizi qələbələrə qovuşduracaq!

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi Orkestr Xidmətinin qurucusu akademiyanın üzvü seçilib



*Hər bir ölkənin, dövlətin ordu quruculuğunda hərbi musiqi böyük əhəmiyyət kəsb edir. Hərbi musiqi şəxsi heyətin mənəvi-psixoloji hazırlığında, onlara vətənpərvərlik ruhunun və döyüş əzminin aşılanmasında əvəzsiz rola malikdir. Əzəmətlə səsləndirilən qədim döyüş mahnıları, hərbi marşlar və musiqilər döyüşçünü düşmən üzərində qələbəyə ruhlandırır. Tarixin bütün dönəmlərində orduda musiqinin təsir gücündən çox danışılıb, çox yazılıb və ən əsası qələbənin qazanılmasında vacib amillərdən biri hesab edilib.*

Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkənin ordu quruculuğunda böyük dönüş yarandı. Bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qarşıya qoyulan istənilən tapşırığı ləyaqətlə yerinə yetirməyə qadir olan ordumuzun bütün sahələrində olduğu kimi, Hərbi Orkestr Xidmətində də yeni quruculuq işləri həyata keçirilir. Zaman-zaman daha müasir, dövrün tələblərinə uyğun, şəxsi heyətin mənəvi-psixoloji hazırlığında mühüm rol oynayan yüksək səviyyədə hərbi orkestr kollektivləri yaradıldı.

Ordu quruculuğunda önəm kəsb edən hərbi musiqi ənənələrinin yaşadılmasına və daha da təkmilləşdirilməsinə əvəzsiz töhfələrini verən Şəxsi Heyət Baş İdarəsinin Hərbi Orkestr Xidmətinin rəisi Xalq artisti, professor, general-mayor Yusif Axundzadənin rəhbərliyi ilə bu sahə keyfiyyət və mahiyyət etibarilə yeni, professional mərhələyə gəlib çıxıb. Belə ki, onun 22 il sovet ordusunda, 28 ilə yaxın müasir Azərbaycan Ordusunda gərgin və yorulmaz fəaliyyəti nəticəsində Hərbi Orkestr Xidməti böyük inkişaf yolu keçib. Hətta "General-mayor Yusif Axundzadə bu xidmətin qurucusudur" desək, heç də yanılmarıq. Hərbi orkestr dövlət səviyyəli rəsmi tədbirlərdə, ölkəmizdə keçirilən idman yarışlarında, mədəni-kütləvi mərasimlərdə nümunəvi çıxışlar edir və mütəmadi olaraq geniş konsert proqramlarını gerçəkləşdirir.

Hərbi musiqiçi və dirijor kadrların hazırlanması, bütün qoşun növləri üçün hərbi orkestrlərin yaradılması, yeni repertuarın formalaşması, zənginləşdirilməsi ordumuzda hərbi musiqi sahəsində atılan ciddi addımlar hesab edilir.



TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİ

AKADEMİK
ÜYE DİPLOMASI

TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİ
BİLİMSEL GENEL KURUL ÜYELERİ KARARIYLA

Sn. Prof. Dr. AHUNDZADE YUSİF YEVGENYEVİÇ
(Azerbaycan)

TÜRK DÜNYASI ARAŞTIRMALARI
ULUSLARARASI İLİMLER AKADEMİSİNİN
AKADEMİK ÜYESİ SEÇİLMİŞTİR.

Başkan: Prof. Dr. HASAN AHMET
Genel Sekreter: Prof. Dr. Tuncay PALTA

20 Şubat 2020 A/Ü - 113

Ankara/TÜRKİYE



Ömrünün 50 ilini bu şərəfli xidmətə və hərbi musiqinin inkişafına həsr edən Yusif Axundzadənin uğurları davamlıdır. Bu günlərdə səmərəli elmi fəaliyyəti və musiqi elminə verdiyi əvəzsiz töhfələrə görə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının üzvü seçilən Hərbi Orkestr Xidmətinin rəisi, xalq artisti, professor, general-mayor Yusif Axunzadəyə akademiyanın diplomu təqdim edilib. Eyni zamanda, o, elmə verdiyi yüksək töhfələrə görə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının "Altın Yıldız" medalına layiq görülüb.

Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının üzvü seçilməsi və "Altın Yıldız" medalına layiq görülməsi münasibətilə hörmətli professor, general-mayor Yusif Axundzadəni təbrik etmək üçün onunla görüşüb təəssüratlarını öyrəndik.

Xidmət rəisi bildirdi ki, ona təqdim olunan bu diplom və medalı türk dünyasının Azərbaycanın hərb musiqisinə və musiqi elminə verdiyi yüksək dəyər kimi qiymətləndirir. "Əlbəttə, bu uğurlar təkcə mənim deyil, Azərbaycanın musiqi ictimaiyyətinin və Hərbi Orkestr Xidmətinin, ümumilikdə ordumuzun şəxsi heyətinin uğuru, qələbəsidir. Deməli, Azərbaycan hərb musiqisi türk dünyasında araşdırılır, öyrənilir və sevilir. Bu çox sevindirici haldır. Biz bundan sonra da musiqi yaradıcılığımızı və elmi fəaliyyətimizi daha da zənginləşdirəcək, Azərbaycanın hərb musiqi sənətinin daha da inkişaf etdirilməsinə və təkmilləşdirilməsinə çalışacağıq."

Sonda Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının üzvü seçilməsi və akademiyanın "Altın Yıldız" medalına layiq görülməsi münasibətilə hörmətli generalımızı təbrik edir, ona hərbi, elmi və pedaqoji fəaliyyətində uğurlar arzulayır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyiciləri ilə Xarici İşlər Nazirliyində praktiki məşğələ keçirilib

*Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun tədris proqramı çərçivəsində kursda təhsil alan dövlət orqanlarının yüksək vəzifəli qulluqçuları ilə Xarici İşlər Nazirliyində praktiki məşğələ keçirilib.*




Praktiki məşğələdə Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Leyla Abdullayeva tərəfindən nazirliyin konfrans zalında dinləyicilərə brifinq verilib.

Brifinqdə Xarici İşlər Nazirliyinin yaranma tarixi, strukturu, vəzifə və tapşırıqları, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilmiş xarici siyasət prioritetləri, bu sahədə Azərbaycan Respublikası Prezidentinin tapşırıq və təlimatları, son illərdə Azərbaycan Respublikasının çoxistiqamətli, milli maraqlara əsaslanan xarici siyasəti, Azərbaycan Respublikasının xarici dövlətlərdə fəaliyyət göstərən diplomatik xidmət orqanlarının - səfirliklərin, konsulluqların və beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklərin fəaliyyəti haqqında dinləyicilərə geniş məlumat verilib. Dinləyiciləri maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

Praktiki məşğələnin gedişində akademik kursun dinləyiciləri Xarici İşlər Nazirliyinin Heydər Əliyev guşəsini ziyarət edib, ümummilli lider Heydər Əliyevin büstü önündə xatirə şəkli çəkdiriblər.

**"Azərbaycan Ordusu"**

# Ermənistan silahlı qüvvələri Əlahiddə Ümumqoşun Ordunun mövqelərini atəşə tutub

*Martın 12-i səhər saatlarından Ermənistan silahlı qüvvələrinin bölmələri Əlahiddə Ümumqoşun Ordunun mövqelərini atəşə tutmaqla atəşkəs rejimini kobud şəkildə pozub.*

Əsasən düşmənin Ararat rayonu ərazisindəki Tejqar və Bağarsıq dağlarının ətəklərində yerləşən mövqelərindən qarşı tərəfdə yerləşən Əlahiddə Ümumqoşun Ordunun mövqeləri iriçaplı pulemyot və snayper tüfənglərindən intensiv atəşə məruz qalıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti tərəfindən qətiyyətli cavab tədbirləri görülür və atəşkəs rejiminin pozulmasının fəsadları araşdırılır.

Hazırda əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 mart 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Azərbaycan əsgəri hərtərəfli hazırlıqlıdır”

*Hərbi qulluqçuların mənəvi-psixoloji və sosial-məişət şəraitinin yüksək səviyyədə olması Müdafiə Nazirliyi rəhbərliyinin daim diqqət mərkəzindədir. Hərbi hissələrdə yaradılan şərait bunun bariz nümunəsidir. Sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, şəxsi heyətin döyüş hazırlığına da həmişə diqqət yetirilir. Gələcək döyüşlərdə uğur əldə etmək üçün şəxsi heyətin nizam-intizamı, peşəkar döyüşçü kimi formalaşması, qorxmazlığı, düşmənə olan nifrəti, ruh yüksəkliyi vacib şərtlərdəndir. Bu səbəbdən ordumuzda əhəmiyyətli rol oynayan ictimai-siyasi hazırlıq dərslərinə xüsusi önəm verilir.*




"N" hərbi hissəsində şəxsi heyətlə keçirilən ictimai-siyasi hazırlıq dərsində komandir və əsgərlərimizi yaxından izləmək şansı qazandıq. Məşğələ müvafiq standartlara uyğun olan ideoloji otaqda keçirilirdi. Otaq ümummilli lider Heydər Əliyevin, Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun ön xətdə şəxsi heyətlə görüşünü əks etdirən şəkillərlə, dövlət atributlarımızı, tarixi qəhrəmanlarımızı, qan yaddaşımızı əks etdirən stendlərlə, müasir standartlara cavab verən texnika ilə təchiz olunub.

Dərs prosesi leytenant Səyavuş Qurbanlının əsgərləri salamlaması, onların say tərkibini yoxlaması ilə başladı. Zabit məşğələyə başlamazdan əvvəl ötən dərslər haqqında şəxsi heyətə suallar ünvanladı. Bir anlıq orta məktəbdə bizə tarix fənnini tədris edən Mahir müəllimin dediyi "təkrar biliyin anasıdır" fikrini xatırlayıram. Mahir müəllim yeni mövzuya keçməzdən əvvəl ötən dərsdə mənimsədiklərimizi soruşar, əgər nəsə yadımızdan çıxardısa, usanmadan bir daha izah edərdi. Zabitin bu hərəkəti məni məktəb illərimə qaytardı.

Səyavuşun həvəslə əsgərlərə dərsi anlatması zabitin peşəsinin aşiqi olduğundan xəbər verirdi. Məşğələ bitdi. Gənc zabit və əsgərlərimizlə həmsöhbət olmaq imkanı qazandıq. Öyrənirik ki, leytenant Səyavuş Qurbanlı Azərbaycan Müəllimlər İnstitutunun məzunudur. Vətənə olan sevgisi və düşmənə olan nifrəti gəncin həyatını hərb sənətinə bağlayıb. İctimai-siyasi hazırlıq dərsinin əhəmiyyətindən danışan zabit bildirdi ki, hər bir hərbi qulluqçu Vətəninin tarixini bilməlidir. "Şəxsi heyətə ictimai-siyasi hazırlıq dərslərini keçməklə, onlara keçmişimizi, qəhrəmanlarımızı, tariximizi öyrədirik. Hər kəs keçmişdə xalqımızın qonaqpərvərliyindən istifadə edən, əlverişli şərait yarananda bizi arxadan vuran düşmənini tanımalıdır. Əgər döyüşdən qalib ayrılmaq istəyirsənsə, mahir döyüşçü olmaqla yanaşı, qarşında dayanan düşmənin haqqında da məlumatlı olmalısan. Keçirilən dərslər sayəsində şəxsi heyətdə ruh yüksəkliyini artırmağa, onları gələcək döyüşlərə hazırlıqlı əsgər kimi yetişdirməyə çalışırıq. Torpaqları işğal altında olan Azərbaycan əsgəri hərtərəfli hazırlıqlı olmalıdır".

Əsgərlərə yaxınlaşıb onların fikirlərini də öyrəndik. Həmsöhbət olduğumuz əsgərlərin sözlərindən Vətənimizə olan məhəbbəti hiss olunurdu. Belə əsgərlərimizdən biri də əsgər Fəxri Quliyevdir. Fəxri Xocavənd rayonunun Kuropatkino kəndindəndir. Əsgər söhbət zamanı bildirdi ki, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin qisasını almağa hər zaman hazırdır: "İşğal altında olan torpaqlarımızı mənfur düşməndən azad etmək, günahsız soydaşlarımızın tökülən qanlarının qisasını almaq hər birimizin borcudur. Atam da Qarabağ müharibəsi veteranıdır. O, Xocavənd istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. Hələ uşaq vaxtlarımdan atamla fəxr edirdim. Atam Vətənin dar günündə onun müdafiəsinə qalxanlardandır. Vətənə sədaqət andı içdiyim gün atam mənimlə qürur duyduğunu, daşıdığım formaya uyğun xidmət etməli olduğumu dedi. Həmin an sevincimin həddi-hüdudu yox idi. Çünki atamın gözündə balaca Fəxridən Vətənin müdafiəçisinə çevrilmişdim. Əsgəri xidmətimin ilk günündən komandirlərimizin rəhbərliyi altında öyrədilən bütün dərsləri, təlimləri mükəmməl dərəcədə mənimsəməyə çalışırıq. Ali Baş Komandanımızın döyüş əmri ilə erməni işğalçılarını doğma torpaqlarımızdan asanlıqla çıxara bilərik".

Əsgər yoldaşının fikrini təsdiqləyən əsgər Eldəniz Nuşiravanlı dedi ki, tarixən ermənilər siyasi disbalansdan istifadə edərək torpaqlarımıza hücum ediblər. "Ancaq fitnəkar niyyətlərini həyata keçirmək istəyən mənfur qonşularımızın hücumlarının qarşısı həmişə alınıb. Ötən əsrin axırlarında da ermənilər öz çirkin əməllərinə davam etdilər. Minlərlə soydaşımız qətlə yetirildi, doğma elobalarından didərgin düşdü. Bu gün Azərbaycan Ordusu nəinki düşmən hücumlarının qarşısını almağa, hətta torpaqlarımızı işğaldan azad etməyə qadirdir. 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt zəfəri gələcək uğurlardan xəbər verir. Bu yaxınlarda keçirilən genişmiqyaslı təlimlər də bunu bir daha sübut etdi. İnanıram ki, tezliklə təlimlərə deyil, döyüşə hazırlıq komandası alacağıq. O zaman Azərbaycan əsgərinin gücünü görən düşmən arxasına baxmadan qaçacaq".

Həmsöhbət olduğumuz hər bir gənc ön xətdə xidmət etməyin, düşməni daima qorxu içində saxlamağın qürurverici olduğunu dedi. Əsgərlərimizin hər cümləsindən açıq-aydın məlum olur ki, onlar Vətən qarşısında borcunu bundan sonra da layiqincə yerinə yetirməyə hazırdırlar. Bir daha əmin olduq ki, Vətənimizin keşiyində mərd, cəsur, qorxmaz, igid Azərbaycan əsgəri dayanır.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu"**

## “Prezident İlham Əliyev parlamentdəki çıxışında Türkiyənin yanında olduğunu bir daha açıq şəkildə bildirdi”

Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışı Azərbaycanın gələcək strateji inkişaf proqramlarını əks etdirən tezislərdən ibarət idi. Dövlət başçısının parlamentin və deputatların daha fəal olmasının vacibliyinə dair tövsiyələri, eləcə də Dağlıq Qarabağ problemi ilə bağlı hücum diplomatiyası taktikası barədə fikirləri hər bir deputatın qarşısında təxirəsalınmaz vəzifələr qoyur. Yeni parlamentin tərkibi, rəhbərliyə və komitə sədrlərinə müxalifət partiyalarını və bitərəfləri təmsil edən deputatların seçilməsi Azərbaycanda demokratik dəyərlərə sədaqətin təzahürüdür.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç bildirib.

Prezident İlham Əliyevin çıxışında miqrantlar, ölkələrini tərk etmək məcburiyyətində qalan insanların acı taleyi, onlara göstərilən düşmən münasibətlə bağlı fikirlərini siyasi liderin qətiyyətli mövqeyi kimi dəyərləndirən səfir deyib: "Dövlət başçısı çıxışında Türkiyənin 4 milyon qaçqına ev sahibliyi etməsini diqqətə çatdırmaqla açıq şəkildə dünyadakı ikili standartları ittiham etdi. Digər tərəfdən, bu ifadələrin altında dərin mənalar var. Bu, bir mesajdır ki, əgər Dağlıq Qarabağ problemi ədalətli şəkildə həll olunsaydı, bu gün Suriya böhranı da baş verməzdi. Əgər zamanında Avropa ölkələri və beynəlxalq təşkilatlar bir milyondan çox azərbaycanlı qaçqın, köçkünün taleyinə biganə qalmasaydı, indi bu bölgənin özü milyonlarla qaçqının qarşısında aciz olmazdı".

Səfir fikirlərini belə tamamlayıb: "Hər bir vətəndaşımız, o cümlədən mənim üçün qürurvericidir ki, Prezident İlham Əliyev bütün məqamlarda olduğu kimi, parlamentdəki çıxışında da bir daha Türkiyənin yanında olduğunu açıq şəkildə ifadə etdi".

# Naxçıvan Qarnizonu Qoşunlarında komanda-qərargah təlimi başlayıb

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən komanda-qərargah təlimi başlayıb.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ikitərəfli, üçpilləli komanda-qərargah təliminin senarisinə uyğun olaraq Naxçıvan Qarnizonu Qoşunları müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilib, birləşmə və hissələr "Təlim-döyüş həyəcan" siqnalı ilə qaldırılaraq cəmləşmə rayonlarına çıxarılıb.

Xüsusi qoşun növlərinin birləşmələrinin də cəlb edildiyi təlimdə müasir rabitə və avtomatik idarəetmə sistemlərindən istifadə etməklə idarəetmənin bir məntəqədən digərinə ötürülməsi, mübadilə axınından səmərəli istifadənin məşqi həyata keçirilir. Ərazidə qərargahlar tərəfindən müdafiə və hücum əməliyyatları planlaşdırılır.

Təlimdə əsas diqqət düşmənin qəfil hücumunun qarşısının alınması və təxribat-diversiya qruplarının məhv edilməsi zamanı qoşunlar arasında qarşılıqlı fəaliyyətlərin idarə olunmasında qərargahların və zabitlərin peşəkarlığının artırılmasına yönəldilib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan xalq eposlarında milli qəhrəmanlıq nümunələri ("Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları əsasında).

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək, mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirmək tövsiyə olunur.*

**Suallar:**
**1. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir.**
**2. Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır.**

### *"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli qəhrəmanlıq abidəsidir*

Erkən orta əsrlərdə (VI-XI əsrlər) Azərbaycanda baş verən ictimai-siyasi hadisələr öz bədii əksini şifahi və yazılı ədəbiyyatda tapmışdır. Həmin dövrdə şəhərlərdə və oturaq əhali arasında daha çox sehrli nağıllar və dini rəvayətlər yayıldığı halda, maldarlıqla məşğul olan əhali arasında aşıq yaradıcılığı inkişaf etmişdi. Köçərilər arasında ozanların böyük nüfuzu var idi. Onlar el-el, oymaq-oymaq gəzərək xalq qəhrəmanlarının adına dastanlar qoşur və onları təbliğ edirdilər. Ozanlar, eyni zamanda, xalqın məsləhətçisi, bilicisi hesab olunurdular. Ən məşhur ozanları xalq hörmətlə "dədə" adlandırırdı.

Qədim oğuz türklərinin məişətini, etik-estetik düşüncələrini əks etdirən qəhrəmanlıq eposu bu günümüzə şifahi və yazılı şəkildə gəlib çatmışdır. Azərbaycan qəhrəmanlıq eposunun böyük abidələrindən olan, Azərbaycan ədəbiyyatı tarixində şifahi xalq yaradıcılığının ana dilində qələmə alınmış ilk ən böyük ədəbi abidəsi "Kitabi-Dədə Qorqud"dur. Bu gün elmə məlum olan "Kitabi-Dədə Qorqud" əlyazmalarının Drezden, Vatikan və Berlin kitabxanalarında saxlanılan nüsxələri məlumdur. Həmin əlyazmalarda oğuz bəylərinin bahadırlıq və cəngavərlik rəşadətlərini düzüb qoşan və milli yaddaşa verən Dədə Qorqudun peyğəmbərimiz Məhəmmədlə (s.a.v.) bir dövrdə yaşadığı göstərilir.

"Kitabi-Dədə Qorqud" dastanları dünya dastan yaradıcılığının nadir incilərindəndir. Bir sıra tədqiqatçıların fikrincə, dastanın yarandığı VII əsrə qədərki dövrdə, yaxud da boyların tam halda yazıya köçürüldüyü XVI əsrdə nə Qərbdə, nə də Şərqdə "Kitabi-Dədə Qorqud" səviyyəsində bədii nəsr nümunəsi olmamışdır. "Kitabi-Dədə Qorqud" dastanları ilk dəfə adı elmə məlum olmayan şəxs tərəfindən 1052-ci ildə qələmə alınmışdır. Dastan, təxminən, beş əsr şifahi təzahür (formalaşma, inkişaf) dövrü yaşamış, bundan sonra XI əsrdə yazıya alınmışdır. "Kitabi-Dədə Qorqud" dastanlarında bəhs olunan hadisələrin V-VII əsrlərdə, bəzi boyların ondan da xeyli əvvəl olmaları ehtimal edilir. Dastanda təsvir olunan hadisələr xanlar xanı Bayandır xanın başçılıq etdiyi, iyirmi dörd sancağı (el, vilayət) birləşdirən Oğuz dövlətində cərəyan edir. "Kitabi-Dədə Qorqud" ədəbi əsər olmaqdan başqa, Azərbaycan-Oğuz dövlətinin ərəb işğalından əvvəlki müəyyən dövrün və ərəb işğalı ərəfəsinin, Oğuz zamanının tarixidir. Kitab tariximizin, soykökümüzün, mənşəyimizin, məskənimizin müəyyənləşdirilməsi üçün də son dərəcə etibarlı və mötəbər bir qaynaqdır. Oğuzlar Azərbaycanın, demək olar ki, bütün ərazisində və indiki Ermənistan, Gürcüstan ərazisinin müəyyən hissələrində yaşayırdılar. Bu, azərbaycanlıların tarixən və indi yaşadıqları yerlərə tam uyğun gəlir.

"Kitabi-Dədə Qorqud"da Azərbaycanın V-VII əsrlərini özündə əks etdirən dövlətçilik ənənəsi əks olunmuşdur. V-VI əsrlərdə, bütövlükdə, Qafqaz Göy Türk xaqanlığına daxil idi. Azərbaycan müstəqil dövlət olaraq fəaliyyət göstərirdi. Onun 90 minlik qoşunu, özünəməxsus dövlətçilik ənənələri, ciddi qayda-qanunları vardı. "Qalın Oğuz" xaqanlığı "İç Oğuz" və "Dış (Daş) Oğuz" inzibati ərazilərinə bölünmüşdü. "İç Oğuz" dedikdə Kür-Araz ovalığı (Aran) yerləşən torpaqlar nəzərdə tutulurdu. "Dış Oğuz"a isə Şimali və Cənubi Azərbaycan vilayətləri, habelə gündoğan Anadolunun Van vilayəti və qalan ərazilər daxil idi. Erkən orta əsrlərdən Azərbaycan kimi tanınan Oğuz dövləti Urmiya, Göyçə gölü və Xəzər dənizi, Qızılüzən və Samur çayı, Dəmir qapı Dərbənd və Həmədan çevrəsi ərazilərini əhatə edirdi.

"Kitabi-Dədə Qorqud"da Azərbaycanımızın ulu sələfi - Oğuz eli təsvir olunur ki, bu eposda müasir mənada anladığımız dövlətçiliyin bütün əlamətləri var. Qədim dövlətçiliyimizdə ikihakimiyyətlilik olub: xaqan və şah hakimiyyəti. "Dədə Qorqud"da Bayandır xan xanlar xanıdır, Qazan xan bəylər bəyi. Qanunvericilik hakimiyyəti, hökm vermək, fərman vermək Bayandır xanın əlində, icra hakimiyyəti, habelə, ordu, iqtisadiyyat Qazan xanın əlində cəmləşib.

Dastanda ən nümunəvi cəhətlərdən biri də vahid dövlətçilik ideyasıdır. Bu məqsədlə Oğuz bəyləri özlərində öz içərilərindən ağsaqqal seçmək, onun təklif və tapşırıqlarını sözsüz yerinə yetirmək amalı formalaşdırmışlar. Belə bəylərdən biri də Bayandır xan olmuşdur. Bayandır xan dastanda böyük bayraq götürən, Oğuz igidlərinin Vətəni qorumaq mübarizələrinə rəhbərlik edən bir dövlət başçısı kimi çıxış edir, dövlətçiliyi hər şeydən üstün tutur, dövlətə qarşı çıxanlara heç bir güzəştə getmir. Dastanda Oğuz elinin dövlətçiliyə, qanunların aliliyinə, ictimai ədalətin qorunmasına riayət və hörməti özünü qabarıq göstərir.

"Kitabi-Dədə Qorqud" qəhrəmanlıq, vətənpərvərlik haqqında dastandır. Burada Oğuz igidlərinin Azərbaycana hücum edən erməni və gürcü feodallarına, onların havadarları olan Bizansa, həmçinin gürcü hakimləri ilə əlbir hərəkət edən qıpçaq türklərinə qarşı mübarizəsi daha geniş və daha parlaq əks olunmuşdur. Azərbaycan xalqının yadellilərə qarşı qəhrəmanlıq mübarizəsi səhifələri ilə zəngin olan "Kitabi-Dədə Qorqud" dastanları həm də xalqımızın zəngin oturaq mədəniyyətə malik olduğunu sübut edir. Dastanda Vətən anlamı - Dəmir qapı Dərbənddən tutmuş Göyçəyə, Əlincədən tutmuş Zəncana və Anadoluya qədərki əraziləri əhatə edir.

"Kitabi-Dədə Qorqud" həm də oğuzların əxlaq kitabıdır. Böyüyə hörmət, ata-anaya məhəbbət, ailəyə sədaqət - bu insani keyfiyyətlər Oğuz övladlarının qanına ana südü ilə, ata nəfəsi ilə birlikdə daxil olur. Oğuz igidləri "Ana haqqı Tanrı haqqıdır" ifadəsini özləri üçün müqəddəs alın yazısı, həyat amalı seçmişlər.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsidir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanlarının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. "Oğuz tayfaları dilindən Dədəm Qorqud kitabı" adlanan Drezden nüsxəsi bir müqəddimə və 12 boydan ("Dirsə xan oğlu Buğacın boyu", "Salur Qazanın evinin yağmalandığı boy", "Bayburanın oğlu Bamsı Beyrək boyu", "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy", "Duxa Qoca oğlu Dəli Domrulun boyu", "Qanlı Qoca oğlu Qanturalın boyu", "Qazılıq Qoca oğlu Yeynəyin boyu", "Basat Təpəgözü öldürdüyü boy", "Bəkil oğlu Əmranın boyu", "Salur Qazanın dustaq olub oğlu Uruzu çıxardığı boy", "İç Oğuza Dış Oğuzun asi olub Beyrəyin öldüyü boy"), Vatikan nüsxəsi isə eyni müqəddimə və 6 boydan ibarətdir. Bu isə onu göstərir ki, hər iki nüsxə daha qədim bir nüsxədən köçürülmüşdür. "Kitabi-Dədə Qorqud"-un bir sıra boyları 1815-ci ildə alman dilində, 1894-1904-cü illərdə rus dilində, 1916-cı ildə tam şəkildə Türkiyədə, 1939-cu ildə Bakıda, 1952-ci ildə İtaliyada, 1962-ci ildə isə Moskvada çap edilmişdir. Sonralar "Kitabi-Dədə Qorqud" ingilis, alman və fars dillərinə tərcümə edilmiş və İngiltərədə, ABŞ-da, İsveçrədə və İranda çapdan çıxmışdır.

"Kitabi-Dədə Qorqud" dastanlarının Azərbaycan xalqının ictimai-siyasi və mədəni həyatında mühüm rolunu nəzərə alan ulu öndər Heydər Əliyev dastanların dünya miqyasında təbliği, əks etdirdiyi vətənpərvərlik ideyalarının genişləndirilməsi və "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illiyinin dövlət səviyyəsində qeyd edilməsi ilə əlaqədar 20 aprel 1997-ci ildə xüsusi fərman imzalamışdır. Bu fərman əsasında həyata keçirilmiş genişmiqyaslı tədbirlər, sözün böyük mənasında, "Dədə Qorqud" dastanlarının yenidən doğuluşu və əbədiyyət qazanması hadisəsinə çevrilmişdir. 2018-ci il noyabrın 28-də Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü sessiyasında qəbul edilmiş qərarla Azərbaycanın Türkiyə və Qazaxıstan ilə birgə təqdim etdiyi "Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi" çoxmillətli mədəniyyət nümunəsi kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib.

### *Koroğlu Azərbaycan xalqının qəhrəmanıdır*

Azərbaycan xalqının "Kitabi-Dədə Qorqud"dan sonra yaranan ikinci böyük qəhrəmanlıq eposu "Koroğlu"dur. Bu dastan xalqımızın mübarizələrlə dolu tarixi ilə bağlı qəhrəmanlıq eposudur. Bu əsərdə təsvir edilən hadisə və surətlər, xalqımızın qəhrəmanlıq tarixi XVI əsrin sonu və XVII əsrin əvvəllərində Səfəvilər dövlətinin və Osmanlı imperiyasının ərazisində meydana çıxan "Cəlalilər" (ərəb sözü "cəlal" - məşhur, şöhrətli, qorxu yaradan deməkdir) hərəkatı ilə əlaqələndirilir. "Koroğlu" dastanı 18 qoldan ibarətdir. Əsərin ilk qolu giriş xarakteri daşıyır və bu hissədə Koroğlunun atası Alı kişinin başına gətirilən faciədən, onun oğlu Rövşənin əvvəlcə atasının intiqamını almaq üçün mübarizə meydanına atılmasından, sonra isə bütün xalqın təəssübünü çəkən bir qəhrəman kimi tanınaraq Koroğlu adı ilə şöhrətlənməsindən danışılır. Dastanın sonrakı qollarında isə Koroğlunun və onun ayrı-ayrı silahdaşlarının-dəlilərinin igidliyindən söhbət açılır. Dastan sanki rəmzi xarakter daşıyır. Koroğlu və onun dəliləri xalqın qəhrəmanlıq ruhunu, Çənlibel isə Vətəni, el-obanı təmsil edir.

Eposun baş qəhrəmanı Koroğludur. O, xalqını, Vətənini dərindən sevən igid və cəsur bir cəngavərdir. Onun mübarizəsi xalqın mübarizəsidir, xalqın azadlıq istəyindən doğan bir qəhrəmanlıq tarixidir. Koroğlunun mübarizəsi varlanmaq, yaxud səltənət sahibi olmaq fikirlərindən çox uzaqdır. Əksinə, o şahlara, sultanlara nifrət edir, onlardan xalqın başına gətirilən ağrıların, acıların qisasını almağa çalışır, alınan qəniməti də xalqa, imkansızlara paylayır. Koroğlunu ayağa qaldıran, alovlandıran, coşduran el məhəbbəti xalq sevgisi, Vətən eşqidir. Onun qəhrəmanlığının əsas ilhamçısı da həmin bu Vətən məhəbbəti, el sevgisidir. Koroğlunun düşmənləri Vətənin, elin düşmənləridir.

Koroğlu mərd, igid bir qəhrəman olduğu kimi, həm də bacarıqlı bir sərkərdədir. O, düşmənə qarşı mübarizədə həmişə ağılla hərəkət edir, bəzən öz paltarını dəyişərək aşıq libasında düşmən içərisinə gedir, bəzən isə dəlilərinə əsl sərkərdə kimi başçılıq edərək onları ruhlandırır, əzmlə düşmən üzərinə aparır. Koroğlu zülmə, zülmkara qarşı amansızdır, lakin həm də mərddir, məğlub olanı əzmir, aman istəyəni öldürmür.

Xalqın düşmənlərinə qarşı mübarizədə Koroğlu tək deyildir. Xalqın ən seçmə mərd və igid oğulları onun ətrafında birləşərək mübarizə aparırlar. Eyvaz, Dəmirçioğlu, Dəli Həsən, Bəlli Əhməd və başqa dəlillər igidlikdə heç də Koroğludan geri qalmırlar. Dəmirçioğlu ən çətin döyüş tapşırıqlarını dəyanətlə yerinə yetirən, meydana ər kimi girib ər kimi çıxan yenilməz bir igiddir. Koroğlunun və bütün dəlilərin arxası, köməyidir. Eyvaz "Koroğlunun Qars səfəri" qolunda Ərəb Reyhan kimi təcrübəli və hiyləgər bir ordu başçısı ilə təkbətək vuruşaraq qalib gələn bir el qəhrəmanı, el fədaisidir. Dastanda Çənlibelə yeddi min yeddi yüz yetmiş yeddi dəli toplaşdığı bildirilir. Bu rəqəm xalqın yenilməzliyinin, onun gücünün tükənməzliyinin rəmzidir.

"Koroğlu" eposunda igidlər "dəli" adlandırılır. Bu söz indiki "xəstə, ağılsız" mənasından uzaq olub, "igid döyüşçü, cəngavər" anlamlarını daşıyır.

"Koroğlu" dastanında bir sıra qadın surətləri də iştirak edir. Bunlar, əsasən, paşa və xan qızları olsalar da, müsbət surətlərdir. Bu qadınlar saraylardakı daş hərəmxanalardan qurtularaq Çənlibelə gələn, azad sevgi əsasında ailə həyatı quraraq öz sevgililəri ilə çiyin-çiyinə düşmənə qarşı mübarizə aparan qadınlardır. Nigar xanım, Məhbub xanım, Telli xanım və başqaları ox atmağı, qılınc çalmağı, at oynatmağı heç də kişilərdən pis bacarmırlar.

"Koroğlu" eposu bədii ləyaqəti, dil və üslub gözəlliyi ilə seçilən nadir bir xalq abidəsidir. Bu əsər onu yaradan xalqın özü kimi ölməz və əbədidir.

Xalqımızın qəhrəmanlıq ənənələrini əks etdirən xalq ədəbiyyatı nümunələri əsrlərdən keçərək bu gün bizə çatmış və milli-mədəni sərvətimizə çevrilmişdir. Ümummilli lider Heydər Əliyev bütün sahələrə olduğu kimi, tariximizə, mədəniyyətimizə də diqqət və qayğı göstərmişdir. Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, latın qrafikası ilə, ilk növbədə, kütləvi nəşr ediləcək Azərbaycan xalq ədəbiyyatı nümunələri arasında "Kitabi-Dədə Qorqud" eposunun 3 cilddə, "Koroğlu" dastanının 2 cilddə çapı nəzərdə tutulmuşdur.

Torpaqlarımızın 20 faizinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edildiyi bir zamanda Azərbaycan Ordusunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, ümumiyyətlə, gənclərin vətənpərvərlik tərbiyəsində "Kitabi-Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq salnaməsinin dəyərli əsərləri kimi mühüm əhəmiyyətə malikdir.

**İdeoloji İş və
Mənəvi-Psixoloji
Təminat İdarəsi**

*Gənc zabitlərimiz*

# “Düşmənə qalib gəlmək gücündəyik”

İllər ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, ancaq bu qoca dünyanın unikal və qədim sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan daim yaşayacaq. Vətən oğul və qızlarının sayəsində, onların çiynində yaşayacaq. Bu dünya belədir: kimi Vətənin çiynində yaşayır, kimi də Vətəni çiynində yaşadır. Hara getsək də, könül rahatlığı tapdığımız yeganə müqəddəs məkan Vətənimizdir. Qəlbimizin səsi ilə "Ey əziz anam, Azərbaycan!" dediyimiz, dünyaya dəyişmədiyimiz sevgimizdir.

Bu sevgi ilə yaşayan oğullarımızdan biri də "N" hərbi hissənin gənc zabiti kapitan Şahin Dadaşovdur.

Doğulandan həyatın sonuna kimi hər bir insanın valideynləri, ailəsi, ölkəsi və Vətəni qarşısında müəyyən məsuliyyətləri olur. Ş.Dadaşov hesab edir ki, gənc yaşında çox ağır bir məsuliyyəti çiyinlərinə götürərək xalqa xidmət etmək üçün uzun və şərəfli bir yola çıxıb. "Bu gün xalqa, dövlətə, dövlətçiliyə xidmət naminə getdiyim yolda Azərbaycan Ordusunun bir parçası olduğum üçün özümü xoşbəxt hiss edirəm. Məşhur rus filosofu Vissarion Belinski düşüncələrinin birində yazır:



"Öz Vətəninə mənsub olmayan insan bəşəriyyətə də mənsub deyil...". Bu gün Azərbaycan Ordusunun bütün hərbi qulluqçuları haqqı çatır desin ki, biz həm bu Vətənə, həm də bəşəriyyətə mənsubuq. Fəxrlə deyə bilərik ki, Aprel döyüşlərinin, Günnüt zəfərinin davamını gətirə biləcək qəhrəman oğullarımız və xalqın güvənc yeri olan güclü ordumuz var. Azərbaycan Ordusu və bu orduda olan nizam-intizam artıq bizə qətiyyətlə döyüş ruhunda, döyüş əzmində olduğumuzu deməyə imkan verir. Biz istənilən halda düşmənə qalib gəlmək gücündəyik. İştirakçısı olduğum Aprel döyüşləri də bunu deməyə əsas verir".

2016-cı ilin aprelindən söz açan gənc zabit onu da qeyd etdi ki, Aprel döyüşləri Azərbaycan Ordusu şəxsi heyətinin qətiyyətinin bariz nümunəsi, eyni zamanda, günümüzün zəruri tələbi idi. "Rəşadətli ordumuza onun qələbəsindən ruhlanan xalqın sevgisi və dəstəyi təkcə düşməni deyil, onun havadarlarını da susmağa məcbur etdi. Düşmənin neçə illərdən bəri möhkəmləndirdiyi istehkamları, tutduğu hərbi əhəmiyyətli yüksəklikləri bir neçə sərrast zərbə ilə darmadağın oldu. Ali Baş Komandanımızın dediyi kimi: "Ölkəmizlə silah gücü ilə danışmaq mümkün deyil və Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz!"

Söhbət zamanı zabit qazanılan qələbədə təlimlərin də payının az olmadığını bildirdi: "Hazırda respublikamızda ordu quruculuğu prioritet məsələ kimi diqqət mərkəzindədir. Müharibə şəraitində yaşayan ölkə üçün bu amil xüsusi əhəmiyyət kəsb edir. Onun nəticəsidir ki, şəxsi heyətin döyüş hazırlığının və peşəkarlığının artırılması məqsədilə Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, ilboyu hərbi hissəmizin şəxsi heyətinin də qatıldığı döyüş atışlı təlimlər keçirilir. Keçirilən təlim və yarışlardan birində şəxsi heyətimiz 1-ci yeri tutmağa da müvəffəq olub. Təlimlər zamanı bütün bölmələr - motoatıcı, artilleriya, zirehli tank və mühəndis-istehkam bölmələri döyüş atışları icra edirlər. İl ərzində keçirilən təlimlər hərbi hissələrimizin yüksək səviyyəli hazırlığından xəbər verir və bir daha göstərir ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirəcək qədər güclüdür."

"Azərbaycan Ordusu çoxdan arzulanan səviyyəyə çatıb", - deyə zabit sözünə davam etdi. - Bu gün Azərbaycan Ordusunu yalnız dünyanın ən inkişaf etmiş dövlətlərinin orduları ilə müqayisə etmək olar. Hazırda Azərbaycan Ordusunun zabit və əsgəri ən son elmi nailiyyətlərin bəhrəsi olan müasir hərbi texnikadan istifadə etməyə, düşmənlə istənilən döyüşdən qalib çıxmağa hazırdır. Bu ordu nəinki ölkəmizin ərazi bütövlüyünü mənfur düşməndən qorumağa, həm də işğal olunmuş ərazilərimizi qısa müddətdə düşməndən azad etməyə qadirdir. Arzumuz budur ki, tezliklə torpaqlarımızı işğaldan azad edək və üçrəngli bayrağımızı Qarabağda dalğalandıraq.

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Fiziki hazırlıq*

# “İdman özünəinam hissini də yüksəldir”

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlıq məşğələsi ilə tanış olduq. Geniş idman şəhərciyi, müxtəlif idman alətləri, səliqəli futbol və voleybol meydançaları diqqətimizdən yayınmadı. İdman qurğularında əsgərlərimizin çevik hərəkətlərini seyr etdik. Hər biri idmançı görkəminə malik, çevik və çəldir.*



Leytenant Əli Əhədovun nəzarəti altında əsgərlər bir sıra idman növləri ilə məşğul idilər. Onlar növbə ilə alətlərdə müxtəlif hərəkətləri yerinə yetirirdilər. Həvəslə, yorulmadan məşq edirdilər. Hər kəs irəli çıxır, daha hazırlıqlı, daha üstün olduğunu göstərməyə çalışırdı.

İdmanın insan sağlamlığı üçün faydasından söhbət açan zabit bildirdi ki, mütəmadi olaraq idmanla məşğul olmaq insanın əhval-ruhiyyəsini yüksəldir. İdman sayəsində narahatlıq və gərginlik aradan qalxır, əsəb sistemi müalicə olunur. Nəticədə, insan özünü gümrah və əvvəlkindən daha yaxşı hiss edir. Fiziki hazırlıq insanın bir sıra xəstəliklərə yoluxmasının qarşısını alır. Müntəzəm idmanla məşğul olmaq yüksək qan təzyiqini və qanda xolesterinin miqdarını nizamlayır. Bir çox xəstəliklər var ki, onları dərman preparatları ilə deyil, idmanın müxtəlif növlərindən yararlanmaqla daha effektli aradan qaldırmaq olur. Həmçinin idman insanda özünəinam hissini də yüksəldir. İdman sayəsində şəxsi heyət fiziki cəhətdən daha da güclü olur.



"Bu gün ordu sıralarında xidmət edən əsgərlərimizin yüksək fiziki hazırlığına malik olması olduqca önəmlidir", - deyə zabit bildirdi. - Fiziki hazırlıq döyüş hazırlığının tərkib hissəsidir. Şəxsi heyətin hazırlıqlı, bacarıqlı, peşəkar və əsl döyüşçü kimi formalaşmasında idmanın müstəsna rolu vardır. Bunun üçün hərbi hissəmizdə hərtərəfli şərait yaradılıb. Müasir tələblərə cavab verən avadanlıq və qurğular quraşdırılıb. Peşəkar və təcrübəli komandir heyətinin rəhbərliyi altında məşğələlərimiz yüksək səviyyədə keçirilir. Cəbhə xəttində düşmənlə üz-üzə mövqelərdə əsgəri borcunu yerinə yetirən gənclərimizin fiziki cəhətdən sağlamlığı da diqqət çəkən məsələlərdəndir. Əsgərin fiziki hazırlığı başlıca şərtdir. Ona görə də, ilk növbədə, əsgərlərin fərdi hazırlığına diqqət ayırırıq. Bir çoxları ordu sıralarına çağırılanadək idmanın müxtəlif növü ilə məşğul olublar. Hətta elələri var ki, beynəlxalq və respublika əhəmiyyətli yarışlarda iştirak edərək qalib olublar.

Əsgər Həsən Orucov idmanın sərbəst güləş növü ilə məşğul olub. O, bir çox ölkədaxili və beynəlxalq turnirin qalibi olub. "İdmanla məşğul olduğum zaman daim öz üzərimdə çalışır, məşq edirdim. İdmandan bəhs edən filmlərə maraqla tamaşa edir, fərdi hazırlığımı artırırdım. Ordu sıralarına qatıldıqdan sonra da komandirlərimizin sayəsində də mütəmadi olaraq fiziki hazırlıq məşğələsi ilə məşğul oluruq", - deyə əsgər N.Orucov dedi.

Əsgərlər Fəxri Quliyev, Sərxan Hacıyev və başqaları da hər bir gəncin sağlam yetişməsində idmanın əhəmiyyətli rolunu qeyd etdilər. Şübhəsiz, fiziki hazırlığı yüksək olan döyüşçü düşməni məhv edərək, xalqımıza qələbə sevincini bəxş edəcəkdir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə hərbçilərinə qarşı hücum hazırlığında olan terrorçulardan ibarət qrup zərərsizləşdirilib



Türkiyə hərbçilərinə hücum etmək hazırlığında olan PKK-YPG terror təşkilatının 8 üzvü həyata keçirilən qabaqlayıcı əməliyyat nəticəsində məhv edilib.

Türkiyənin Milli Müdafiə Nazirliyinin saytı xəbər verir ki, terrorçular Suriya ərazisində həyata keçirilən "Sülh çeşməsi" antiterror əməliyyatının əhatə etdiyi bölgədə zərərsizləşdiriliblər.

Ölkə daxilində həyata keçirilən "Kapan-7 Garisa" antiterror əməliyyatı çərçivəsində Siirt bölgəsində PKK terror təşkilatına məxsus bir neçə mağara və düşərgə ələ keçirilib. Terrorçuların torpaq altında və qayalıqlarda gizlətdikləri silah və sursat, digər ləvazimatlar məhv edilib.

### Gürcüstanda həqiqi hərbi xidmətə çağırışın vaxtı uzadılıb



Gürcüstanda həqiqi hərbi xidmətə çağırışın vaxtı aprelin 13-dək uzadılıb.

Bu barədə Gürcüstanın Dövlət Qurumlararası Koordinasiya Şurasının toplantısında qərar qəbul edilib.

Bildirilib ki, qərar ölkədə koronavirusun yayılmasının qarşısının alınması məqsədilə qəbul olunub. Gürcüstanda hərbi hissələrdə koronavirusla əlaqədar dezinfeksiya işləri aparılır. Hərbi çağırışdan azad etmənin də vaxtı dəyişdirilib.

Qeyd edək ki, Gürcüstanda həqiqi hərbi xidmətə çağırış əsasında gənclər Silahlı Qüvvələrdə, Daxili İşlər, Ədliyyə nazirliklərinin, Dövlət Təhlükəsizlik Xidmətinin hərbiləşdirilmiş bölmələrində hərbi xidmət keçirlər.

### ABŞ-ın ardınca Britaniya da qoşunlarının bir hissəsini Əfqanıstandan çıxaracaq



Böyük Britaniya hökuməti ABŞ-ın ardınca Əfqanıstandakı qoşunlarının 30 faizini geri çağıracaq.

Əfqanıstan ərazisində olan 1100 britaniyalı hərbçinin 330-u iyulun ortalarınadək bu ölkəni tərk edəcək. Britaniyalı hərbçilərin demək olar ki, hamısı Kabil şəhərində və onun ətrafında yerləşdirilib. Bununla yanaşı Böyük Britaniya ordusunun az saylı xüsusi təyinatlıları ABŞ hərbçiləri ilə birgə ölkənin digər rayonlarında, o cümlədən Hilmənd əyalətində xidmət aparır.

Hərbi dairələrdəki mənbənin sözlərinə görə, Britaniya qoşunları yalnız "Taliban" hərəkatının ABŞ-la imzaladığı sazişin tələblərini yerinə yetirəcəyi təqdirdə ölkədən çıxarılacaq.

### Pakistan Hərbi Hava Qüvvələrinə məxsus “F-16” təyyarəsi qəzaya uğrayıb



Pakistan Hərbi Hava Qüvvələrinə (HHQ) məxsus "F-16" təyyarəsi İslamabad yaxınlığında qəzaya uğrayıb, pilot ölüb.

Təyyarə martın 23-də Pakistan Günü münasibətilə keçiriləcək paradda iştirak etmək üçün təlim uçuşları həyata keçirərkən qəzaya uğrayıb.

Qəzanın səbəbləri araşdırılır.

Qeyd edək ki, ötən ay da Pakistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə təlim uçuşları zamanı Xayber-Paxtunxva əyalətində qəzaya uğramışdı.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb

*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 11-də Ağdam rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç aparıblar.

# “Torpaqlarımızı işğaldan azad edəcəyik”

## Milli Qəhrəman ailələri ilə görüş keçirilib

*Milli Məclisin deputatı, "Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İctimai Birliyinin sədri Qənirə Paşayeva Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşmüş bir sıra Milli Qəhrəman ailələri ilə görüşüb. Deputat qəhrəmanların ailə üzvlərini 8 Mart Beynəlxalq Qadınlar Günü və qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edib, onlara ən xoş arzularını çatdırıb.*



AZƏRTAC xəbər verir ki, görüşdə Q.Paşayeva Vətənimizin bütövlüyü uğrunda döyüşərək canlarını fəda etmiş şəhidlərimizin hər birimiz üçün əziz olduğunu vurğulayıb.

Prezident İlham Əliyevin şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına xüsusi diqqət və qayğısından danışan deputat şəhid ailələrinin hər zaman dövlətimizin diqqətində olduğunu vurğulayıb. O, deyib: "Azərbaycan Prezidentinin şəhid ailələri ilə görüşləri, onlara xüsusi diqqəti və daimi qayğısı bizim üçün bir nümunədir. Şəhid ailələri, Milli qəhrəmanlarımızın və onların ailələri bizim üçün çox əzizdir".

Qənirə Paşayeva qeyd edib ki, hər bir Milli Qəhrəmanımızın həyat və döyüş yolu bugünkü və gələcək gənc nəsillər üçün əsl vətənpərvərlik nümunəsidir. O bildirib ki, xalqımız Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunacağına əmindir. “O gün uzaqda deyil və inşallah, torpaqlarımızı işğaldan azad edəcəyik, bununla da şəhidlərimizin ruhu şad olacaq.”

Görüşdə Milli Qəhrəman ailələrinin qayğıları dinlənilib, onları maraqlandıran və narahat edən məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Deputat böyüməkdə olan gənc nəsillərimizin qəhrəman şəhidlərimizi daha yaxından tanıması istiqamətində görülən işlər və nəzərdə tutulan layihələrin əhəmiyyətindən söz açıb. Qeyd edib ki, Milli Qəhrəman ailələri də daxil olmaqla, şəhid ailələri, müharibə veteranları və qazilərimizin qayğı və problemlərinin həlli istiqamətində atılan addımlar təqdirəlayiqdir. “Ölkəmizin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın şəhid, məcburi köçkün ailələri və qazilərimizlə hər görüşü, onlara qayğı və dəstəyi bir daha göstərir ki, onlar hər zaman dövlətimizin diqqətindədir.”

Görüş zamanı şəhid ailələri dövlətimizin onlara göstərdiyi qayğı və diqqətdən söz açıblar, buna görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

# İdman

## Qadın qılıncoynadanlarımız dünya kubokunun mərhələ yarışında 14-cü olublar



Azərbaycan qılıncoynadanları Yunanıstanın paytaxtı Afinada keçirilən dünya kubokunun mərhələ yarışında çıxışlarını başa vurublar.

Səbinə Kərimova, Anna Baştа, Sevil Bünyatova və Valeriya Bolşakovadan ibarət yığmamız qadın sablyaçıların komanda yarışında 14-cü olub. Birinci görüşündə Honkonqa 45:32 hesabı ilə qalib gələn sablyaçılarımız, ən güclü 8 komanda sırasına yüksəlmək uğrunda keçirilən görüşdə Fransa seçməsinə 42:45 hesabı ilə uduzub. Komandamız 13-16-cı yerlər uğrunda qarşılaşmada Rumıniyaya 45:40 hesabı ilə qalib gəlsə də, 9-cu yer uğrunda görüşdə Ukraynaya məğlub olub - 40:45. Sablyaçılarımız 13-14-cü yerlər uğrunda görüşdə Almaniya komandasına 40:45 hesabı ilə uduzub. Beləliklə, yığmamız yekun sıralamada 24 komanda arasında 14-cü olub.

## Rüfət Dadaşov ABŞ-ın USL çempionatının Qərb konfransında birinci turun ən yaxşı futbolçusu seçilib




Futbol üzrə Azərbaycan milli komandasının hücumçusu Rüfət Dadaşov ABŞ-ın USL çempionatının Qərb konfransında cari mövsümün birinci turunun ən yaxşı futbolçusu seçilib.

"Finiks Rayzinq" klubunda çıxış edən 29 yaşlı həmyerlimiz 52 faiz səslə rəqiblərini qabaqlayıb. R.Dadaşov həftənin rəmzi komandasında da yer alıb.

Xatırladaq ki, Azərbaycan millisinin hücumçusu "Finiks Rayzinq" klubunun heyətində debüt matçında het-trik edib. O, komandasının "Portlend Timbers"ə 6:1 hesabı ilə qalib gəldiyi matçda rəqib qapısından üç top keçirib.

## Azərbaycan sumoçuları Avropa kuboku turnirində iştirak edəcəklər



Martın 14-də Estoniyada sumo üzrə Avropa kuboku turniri keçiriləcək.

Qitə kubokunda Azərbaycanı Əli Həsənli (70 kq) və Elnur Əliyev (100 kq) təmsil edəcəklər.

Qeyd edək ki, komandamız yarışda Azərbaycan Sumo Federasiyasının prezidenti Samir Abdullayevin rəhbərliyi altında mübarizə aparacaq.

## Güləş üzrə Avropa Olimpiya təsnifat turniri təxirə salınıb




Martın 19-dan 22-dək Budapeştdə keçirilməsi nəzərdə tutulan güləş üzrə Avropa Olimpiya təsnifat turniri təxirə salınıb.

Macarıstan dövləti martın 11-də bu barədə qərar çıxarıb.

Təşkilatçı ölkə Dünya Güləş Birliyi (UWW) ilə ortaq fikrə gələrək, koronavirus epidemiyası ilə əlaqədar belə addım atıb. Yarışın apreldə və ya mayda keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, turnirdə Azərbaycan güləşçilərinin də iştirakı nəzərdə tutulurdu.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Tağıyev Tural Tacəddin oğluna 2017-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Hərbi texnikalar, silahlar*

# Neqev əl pulemyotu



Neqev əl pulemyotu İsrailin “İsrael Military İndustries” konserni tərəfindən istehsal olunur və piyada bölmələrində əl pulemyotu kimi istifadə edilir. Ümumilikdə verilən məlumata görə, silah üzərində işlər 1995-ci ildə tam başa çatdıqdan sonra 1996-cı ildə onun səhra sınağı həyata keçirilib. 1997-ci ildə isə silahlanmaya qəbul edilib. İki modifikasiyada buraxılır: standart uzunluqda və qısa şəkildə. Silahın "Komando" variantı şəhər şəraitində yaxın məsafədən döyüş aparmaq üçün nəzərdə tutulub. Onun qazçıxarma mexanizmi lülənin altında yerləşdirilib. Tez dəyişilən dir. Silahın inşası onun atəş tempini tənzimləməyə imkan verir. Pulemyotun qaz tənzimləyicisi üç vəziyyətdə işləyir. Birincisi, qaz kamerası bağlı halda olanda silahdan qumbaralarla atəş açmaq mümkündür. İkincisi, silahdan dəqiqədə 700-850 atəş açmaq, üçüncüsü isə dəqiqədə 850-1000 atəş açmaq olur.

Döyüş sursatı qismində silahda standart SS109 tipli 5,56x45 mm-lik kalibrli NATO patronlarından istifadə olunur, həmçinin pulemyotda uyğun kəsikli lülə quraşdırıldıqdan sonra M-193 patronlarından, 150 və ya 200 mm-lik səpələnən metal lentdən də istifadə etmək olar.

Silahda standart olaraq Qalil avtomatının 12, 35 və ya 50 ədəd patron tutumlu standart qutuvari maqazinindən istifadə edilir. Pulemyot yan hissədən qatlanan metal qundaqla, daşınmaq üçün tutacaqla və dəyişilən ikiayaqlı süngü ilə komplektləşdirilib. Onun ştat nişan-



gah ləvazimatları açıq və tənzimlənəndir. Silahın üzərində optik, kollimator və ya gecə nişangahlarını quraşdırmaq da mümkündür. Neqev pulemyotu nəqliyyat vasitələrində və döyüş maşınlarında quraşdırılır. İstifadəsi çox sadədir.

Pulemyotun çəkisi 7,4 kiloqram, uzunluğu 780-1020 millimetr, lüləsinin uzunluğu 460 mm-dir. Silahın işləmə prinsipi barıt qazı hesabınadır. Güllənin ilkin sürəti saniyədə 915 metr, nişangah uzaqlığı isə 300 metrdən 1000 metrə qədərdir. Nişangahı sektorludur.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 134
Nüsxə 3900